# "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 yanvar tarixli 259 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 yanvar tarixli 259 nömrəli Fərmanı ilə "20 Yanvar Şəhidi" fəxri adı verilmiş şəxslərin siyahısında bir qrup şəxsin soyadı, adı və atasının adında yol verilmiş uyğunsuzluqların aradan qaldırılması məqsədilə **qərara alıram:**

1. "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 yanvar tarixli 259 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 38; 2003-cü il, № 9, maddə 481) "Babayev Rəhim Vaqif oğlu" sözləri "Babayev Rahim Vaqif oğlu" sözləri ilə, "Əhmədov İlqar Hamlet oğlu" sözləri "Əhmədov İlqar Hümbət oğlu" sözləri ilə, "Əliyev Aruz Əhmədəli oğlu" sözləri "Əliyev Əruz Əhmədəli oğlu" sözləri ilə, "Əliyev Xalqan Yusif oğlu" sözləri "Əliyev Xəlqan Yusif oğlu" sözləri ilə, "Əliyev Zabulla Xeyrulla oğlu" sözləri "Əliyev Zəbbulla Xeyrulla oğlu" sözləri ilə, "Kərimov Oqtay Eyvaz oğlu" sözləri "Kərimov Oqtay Ayvaz oğlu" sözləri ilə, "Qaibov Ələsgər Yusif oğlu" sözləri "Qayıbov Ələsgər Yusif oğlu" sözləri ilə, "Qasımov Abbas Şamməd oğlu" sözləri "Qasımov Abbas Şəmməd oğlu" sözləri ilə, "Meyeroviç Yan Maksimoviç" sözləri "Meyeroviç Yan Maksoviç" sözləri ilə, "Məmmədov Səxavət Heydər oğlu" sözləri "Məmmədov Səxavət Heydər Əli oğlu" sözləri ilə, "Semyonov Aleksandr Vladimiroviç" sözləri "Semyonov Vladimir Aleksandroviç" sözləri ilə, "Səfərov Vəfadar Ağamirzə oğlu" sözləri "Səfərov Bafadar Ağamirzə oğlu" sözləri ilə və "Zülalov İsfəndiyar Adil oğlu" sözləri "Zülalov İsbəndiyar Adil oğlu" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, bu Fərmanın 1-ci bəndi ilə soyadı, adı və atasının adında müvafiq dəqiqləşdirmələr edilən şəxslərin ailələrinə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli 350 nömrəli Fərmanı ilə təsis edilmiş təqaüdün bu Fərman qüvvəyə mindiyi tarixədək ödənilməyən məbləğinin tam həcmdə ödənilməsini təmin etsin.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 noyabr 2006-cı il

№ 479